# KİTABXANA ETNOMƏDƏNİYYƏTİN İNKİŞAFINI TƏNZİMLƏYƏN PROSES KİMİ

**ƏLIZADƏ H.Ə.**
**BDU, Kitabxanaşünaslıq kafedrasının magistrantı**
**habib.alizade@mail.ru**

*Etnomədəni proseslər, eləcə də, etnomədəniyyətin inkişafını tənzimləyən sistemlər içərisində kitabxana mühitinin rolu və əsas xüsusiyyətləri haqqında nəzəri ümumiləşdirmə tədqiqatın əsas obyektidir.*

***Açar sözlər:*** *kitabxana mühiti, etnomədəniyyət, etnomədəni proseslər*

Bəşəri inkişafın bütün mərhələlərində kitabxanalar mədəniyyətin ən aparıcı tərkib hissələrindən biri kimi qiymətləndirilmiş, mədəni strukturlar arasında öz sosial funksiyaları ilə prioritet mövqe tutmuşdur.

Özündə ümumbəşəri sərvətləri cəmləşdirən kitabxana mədəniyyəti bəşər tarixinin çox erkən dövrlərində meydana gəlmişdir. Meydana gəlib formalaşdığı ilk dövrdən mədəniyyət sosial hadisə kimi insanların həyat və fəaliyyəti ilə sıx bağlı olmuş, insanın əmək və şüuru ilə yaratdığı bütün nailiyyətləri ümumiləşdirmiş, qoruyub saxlamış, nəsildən-nəslə ötürülməsində yaxından iştirak etmmişdir.

Kitabxanalar həmçinin cəmiyyətin yaratmış olduğu ən mühüm sosial-mədəni institutlar kimi etnomədəniyyətin inkişafının tənzimlənməsində də yaxından iştirak edərək, bu prosesin mühüm struktur həlqəsi kimi çıxış edir.

Etnoqrafik planda dünya mədəni icması özündə monoetnik olmayan formalaşmanı təcəssüm etdirir ki, bunun da tərkibində müxtəlif sosio-mədəni formalaşma, müxtəlif həyat tərzləri, mentalitet, özünüdərk və müxtəlif sosial-iqtisadi və mədəni səviyyələrin inkişafı əks olunmuşdur.

Qeyd etmək lazımdır ki, kulturoloji nəzəriyyədə göstərilir ki, şəxsiyyətlərarası, millətlərarası və sivilizasiyalararası qarşılıqlı mədəni əlaqələr nəticəsində etno-mədəniyyətə bir model kimi yanaşma qlobal məkanda nəzəri-metodoloji bir problem kimi öyrənilmyə başlamışdır. Bu mənada kitabxanalar şəxsiyyətlərarası, kütləvi və mədəniyyətlərarası kommunikasiyanın ən aparıcı həlqələrindən biri kimi mədəniyyətin ən mühüm struktur-funksional tərkib hissəsi rolunda çıxış edirlər.

Etnomədəniyyətin inkişafını tənzimləyən proseslərdən danışarkən aşağıdakıları xüsusi ilə qeyd etmək lazımdır:

a) Mədəni qavramlar – bu termin altında başqa mədəniyyətlərin dərk olunması, ona qarşı olan münasibət başa düşülür. Başqa mədəniyyətin dərk

olunması bəzən düşmən xarakterli olur və bu, mədəni əlaqələrdə öz izini buraxmış olur.

b) Ksenofobiya–etnomədəniyyətin elə bir prosesidir ki, etnosentrizmlə sıx bağlıdır. Bu, bütün xarici əlaqələrə qorxu və nifrətlə yanaşmanı göstərir.

c) beynəlmiləlçilik-etnomədəniyyətdə buna, qarşılıqlı əlaqələrin xüsusi foması kimi baxılır. Etnomədəni beynəlmilləşdirmə-ümumi tarixi tendensiyanı təşkil edir və bir çox hallarda proqressiv əhəmiyyət daşıyır. Bir çox etnoslarda, xüsusi ilə Şimali Qafqaz regionuna bu xarakterikdir, çünki burada yaşayan millətlər tarixi kökləri ilə, qan bağları ilə bir-birinə çox yaxındırlar.

Bu yanaşmadan aşağıdakı birləşdirici elementləri xüsusi ilə qeyd etmək lazımdır:

- dil: tələffüzdə və tərcümədə bir çox oxşar sözlər;
- folklor: musiqi stilində, mahnılarda, milli geyimlərdə, rəqslərdə, dastanlarda oxşar elementlər;
- din: əsas inteqrasiya edən element;
- adətlər, ənənələr, ayinlər;
- Qarşılıqlı əlaqələr prosesində və elementlərində birləşdirici rol oynayan etnik ənənələr.

Ənənə - bir cəmiyyətdə, bir birlikdə çox köhnələrdən qalmış olmaları səbəbindən hörmətli tutulub nəsildən-nəsilə mesajlanan, sanksiya gücü olan mədəni qalıqlar, vərdişlər, məlumat, adət və davranışlardır. Ənənələrin yenilənməsi prosesinə bir çox fəlsəfi və mədəni işlər həsr olunmuşdur. Bu nəzəri bazanı brləşdirən və təsnifləşdirən tədqiqatçılar yeni yanaşma metodunu qeyd edirlər və bunun 4 mərhələsini müəyyənləşdirirlər:

1. Birinci mərhələ - bu radikal müqavimətdir, vərdiş etdiyimiz ənənələr vərdişsiz yeniliklərə qarşı özünü göstərir.
2. İkinci mərhələ - onların dinc yaşaması: ənənələrə sadiq insanlar öz bildikləri kimi, yenilikçilər öz bildikləri kimi.
3. Üçüncü mərhələ - köhnə ilə yeninin bir birinə qarışması baş verir.
4. Dördüncü mərhələ - müəyyən elementləri saxlamaq şərti ilə ənənə öz yerini yeniliyə verir.

Etnomədəniyyətin ənənə elementlərini təhlil edərək ünsiyyət prosesinin psixoloji statusunu xüsusi ilə qeyd etmək lazımdır. Bu amil kitabxana mühitində də xüsusi ilə nəzərə alınır, çünki burada bilavasitə oxucu ilə kitabxanaçı arasındakı ünsiyyət prosesi mühüm əhəmiyyət kəsb edir. Ümumiyyətlə, qeyd olunur ki, ənənəvi davranışda ən dayanıqlı model ünsiyyət standartıdır. Onlar ümumi qəbul edilmiş və tez-tez təkrar olunan vəziyyətlər zamanı meydana gəlir: salamlaşma, sağollaşma, tanışlıq, müraciət. Ənənəvi ünsiyyətin ən az müstəqil qrupu kimi atributları qeyd edə bilərik: "sosial simvolizmin işarələri, xarici görünüşün detallarla təsviri, predmetlər





üzərində xüsusi qeyd olunmuş və ya hadisəyə uyğun tənzimlənmiş əməliyyatlar".

Ünsiyyət atributlarının xüsusi qrupunu təbii və təsadüfi alınan reaksiyalar təşkil edir: müxtəlif növ emosiyalarda üzə çıxan şivə, ləhcə, mimika və pantomimik reaksiyalar.

Ünsiyyət prosesində insanlar özlərinin dünya haqqında təsəvvürlərini formalaşdırır, dinləmək qabiliyyətinə, ünsiyyət prosesində müəyyən davranış qaydalarına yiyələnmiş olur.

Bütün bu fikirləri ümumiləşdirərək ənənələrin funksiyalarını nəzərdən keçirək:

1. İlk növbədə ənənələr nəsilin müdrikliyinə əsaslanır, ki, bu da özündə normalar, dəyərlər, ideallar və qaydalar əks etdirir. Ənənələr – öz növbəsində keçmişdə əsası qoyulmuş və insanların gələcək həyat fəaliyyətlərində istifadə edəcəkləri ideal və material resurslardan ibarətdir. İctimai həyatı heç nədən, boş yerdə yaratmaq olmaz. Ənənələr öz dünyalarını formalaşdıran insanları "tikinti materialları" ilə təmin edir.
2. Ənənə - qanunçuluğun əsas mənbələrindən biri olub, müasir davranışlara haqq qazandıran və onların izahını verən "həmişə belə olub" və "insanlar həmişə belə hesab ediblər" kimi kəlmələrin legitimliyini təmin edir. Bu proses həmçinin keçmişdə məşhur olanların dedikləri aforizmlərə və doktrinalara da aiddir.
3. Ənənə özündə kollektiv identiklik simvollarını, vahid kökə bağlılığı, millətə, icmaya, qrupa mənsubluğu və ona sədaqəti əks etdirir. Bu, ilk növbədə milli himn, bayraq, emblem, mifoloji və ictimai mərasimlərdən ibarət milli ənənələrdir. Bu, dərin tarixi köklərə əsaslanır ki, keçmişi istifadə edərək gələcəkdə insanları birləşdirə bilsin.
4. Ənənə məyusluğu ictimai həyatdakı uğursuzluqları həzm etməyə kömək edir. Ənənə keçmişdəki xoşbəxt həyatı əks etdirir və böhran vaxtı cəmiyyəti dəstəkləyir. Ənənə keçmiş müstəqilliyi xatırladaraq, millətin xarici işğal vaxtı məhv olmasının qarşısını alır. İtirilmiş azadlığın ənənəsi gec-tez ən qəddar tiranlığı belə diz üstə çökdürür.

Etnomədəni ənənələrdən danışarkən fikirləri ənənə və innovasiyanın bir-birini tamamlama faktorunda cəmləməliyik. Hər bir ənənə keçmiş innovasiyadır və hər bir innovasiya gələcək ənənədir. Həqiqətən də cəmiyyətdəki ənənələr öz başlanğıcını nə zaman və nədənsə götürmüşdür və o, nə vaxtsa innovasiya olmuşdur. Müasir dövrdə gördüyümüz innovasiya ya mədəniyyətə qarışa bilməyəcək, məhv olacaq və unudulacaq, ya da mədəniyyətə qarışaraq müəyyən özünü saxlayacaq, müəyyən dövrdən sonra innovasiya kimi qəbul edilməyəcək və deməli, ənənəyə çevriləcəkdir.

Ənənə innovasiyasız da mövcüd olacaq, lakin innovasiya ənənəsiz mövcud olmuyacaq. Ənənə cəmiyyətin qorunması üçün ən vacib faktordur; innovasiya

cəmiyyətin qorunması üçün lazım olan faktorlardandır; innovasiya cəmiyyətin inkişafı üçün lazımdır.

Etnomədəni mühitdə və etnomədəni ənənələrdə digər mühüm aspekt xalqın incəsənət mədəniyyətidir. Etnik incəsənət mədəniyyəti cəmiyyətdə qəbul edilmiş və təsdiq olunmuş normalar, dəyərlər və ideallar əsasında formalaşır. Milli etnik incəsənət mədəniyyətinin əsas spesifikası ondan ibarətdir ki, o, özündə ənənələri əks etdirir. Hər bir müasir cəmiyyətdə müxtəlif milli mədəniyyət və milli incəsənət ənənələri mövcuddur. İncəsənət yaradıcılığının predmeti kimi maddi dəyərlər həm etnos daxilində, həm də onun hüdudlarından kənarda qəbul edilir və istehlak edilir. Misal kimi Çin vazalarını, Hindistan daş-qaşlarını və İran xalçalarını göstərə bilərik.

Beləliklə, təhlil metodundan istifadə edərək, belə qənaətə gəldik ki, etnos eyni zaamanda həm obyekt, həm subyekt, həm də öz etnomədəniyyətinin daşıyıcısıdır. Məhz bu səbəbdən etnomədəniyyət fərdlərarası və mədəniyyətlərarası əlaqələrin çoxkanallı sistemi olur. Etnomədəniyyət özündə bir sıra elementləri əks etdirərək sistem formalaşdırır və bu sistem cəmiyyətdə qarşılıqlı əlaqələr funksiyasını yerinə yetirir.

Beləliklə, cəmiyyətdə böyük sosial-mədəni funksiyalar yerinə yetirən kitabxanalar etnomədəni prosesin inkişafında ciddi tənzimedici rol oynayır, bu prosesin sürətli tərəqqisi naminə münbit mühit - kitabxana mühiti yaradaraq əsaslı struktur elementi kimi qlobal funksiyalar həyata keçirir.

## ƏDƏBİYYAT

1. *Xələfov A.A. Kitabxanaşünaslığa giriş: Dərslik: 3 hissədə: h. 1-2.-B.; Bakı Universiteti nəşriyyatı, 2001.-400s*

2. *Xələfov A.A. Kitabxanaşunaslığa giriş: Dərslik: 3 hissədə: h.3 : Kitabxana işi haqqında təlim.-B.: Bakı Universiteti nəşriyyatı, 2003.-314s.*

3. *Xələfov A.A. Kitabxana və Cəmiyyət: Monoqrafiya.-Bakı: "Azərnəşr",2011.-348s.*

4. *Xələfov A.A. Kitabxanaşünaslığın tarixi və metodologiyası. Dərslik. Bakı: Bakı Universiteti nəşriyyatı, 2014.-552s.*

5. *Şükürov A. Kulturologiya: Dərslik.-Bakı,1997.-90 s.*

6. *Шаваева М.О., Эфендиев Ф.С. Этнокультура как много-функциональная система взаимодействия: Монография.-Нальчик, 2005.-149с.*





## БИБЛИОТЕКА КАК РЕГУЛЯТИВНАЯ СИСТЕМА РАЗВИТИЯ ЭТНОКУЛЬТУРЫ

**АЛИЗАДЕ Г.А.**

### *РЕЗЮМЕ*

В статье осуществляется теоретическое обобщение этнокультурных процессов, а также систем развития этнокультуры в библиотечной среде и их ключевых особенностей.

***Ключевые слова:*** *библиотечная среда, этнокультура, этнокультурные процессы.*

## THE LIBRARY AS A PROCESS OF ETHNOCULTURE OF REGULATING THE DEVELOPMENT

**ALIZADE H.A.**

### *SUMMARY*

The article is given theorotical generalization about ethno-cultural processes, as well as the role and key features of the library within the development of ethnic culture climate control systems .

***Key words:*** *library environment, etno-culture, etno-cultural processes*